


## Dünya ölkələri İkinci dünya müharibəsindən sonra

17. Amerika Birləşmiş Ştatları ........ 100
18. Böyük Britaniya, Fransa, Almaniya və İtaliya ........ 106
19. SSRİ. Rusiya Federasiyası ........ 112
20. Türk dünyası və İran ........ 118
21. Hindistan, Pakistan və ərəb ölkələri ........ 124
22. Çin, Yaponiya, Koreya ........ 130
23. Dövlətlərarası münasibətlər ........ 136
24. Mədəniyyət ........ 142

## Şərti işarələr

S Sual

T Tapşırıq

M Maraqlıdır

★ Lüğət

# Əziz məktəblilər!

Siz 8-ci siniflər üçün Ümumi tarix dərsliyində yeni ictimai-iqtisadi münasibətlərin bərqərar olması, demokratik dəyərlərin möhkəmləndirilməsi və hüquqi dövlətlərin yaradılması uğrunda insanların apardığı mübarizənin müxtəlif formaları ilə tanış oldunuz. Bu dərslikdə sizə XIX–XXI yüzilliyin əvvəllərində dünyada baş vermiş mühüm tarixi hadisələr təqdim olunur. Burada siz aparıcı Qərb ölkələrinin sürətli iqtisadi inkişafı, sənaye cəmiyyətinin qurulması prosesi, elmi-texniki kəşflərin çoxalması, yeni istehsal sahələrinin meydana gəlməsi və azad sahibkarlıq mühitinin formalaşdırılması barədə əsas məlumatlarla tanış olacaqsınız. Bəşər cəmiyyətinin inkişafı heç də düzxətli olmamışdır. Dünyada baş verən siyasi-iqtisadi böhranlar, ideoloji mübarizələr, təbii fəlakətlər, epidemiyalar və müharibələr bu inkişafa mənfi təsir göstərmişdir. Bəşəriyyət iki dəfə Dünya müharibəsi ilə sınanmış və onların acı nəticələrinin aradan qaldırılması məcburiyyətində qalmışdır. Fərqli siyasi sistemlərin mövcudluğu, dövlətlərin sürətlə silahlanması və haqsız güc nümayişi dünyaya həlli çətin olan qlobal problemlər miras qoymuşdur. Dünya ictimaiyyəti bu problemlərin öhdəsindən gəlməyin yolunu iqtisadi və mədəni əməkdaşlıqda görür. Bu baxımdan təhsil sisteminin üzərinə böyük yük düşür. Humanist, vətənpərvər, fərqli fikirlərə dözümlü, başqalarına hörmətlə yanaşan, dostlarını və ailəsini sevən gənc nəslin yetişdirilməsi bugünkü məktəbin qarşısında duran ən mühüm vəzifədir. Bu yolda durmadan çalışmalı, əldə etdiyiniz biliyin bacarığa çevrilməsinə səy göstərməlisiniz.

Ümumi orta təhsilin son pilləsində sizə nailiyyətlər arzulayırıq!